Mərasimdə təhsil naziri Misir Mərdanov iştirak edib. Nazir layihənin ölkəmizin təhsil sistemi üçün xüsusi əhəmiyyət daşıdığını qeyd edərək bildirib ki, aşağı sinif şagirdlərinə noutbukların verilməsi onların informasiya-kommunikasiya texnologiyaları vasitəsilə daha effektiv təhsil almalarına yaxından kömək edəcək.

Sonra nazir liseydə “Elektron məktəb” layihəsi çərçivəsində yaradılmış və artıq istifadə edilən elektron jurnallar ilə yaxından tanış olub.

Mərasimdə liseyin 5-6-cı sinif şagirdlərinin bu noutbuklardan həm məktəbdə, həm də evdə istifadə edə biləcəkləri barədə məlumat verilib.

Onu da qeyd edək ki, “1 şagird-1 kompüter” layihəsi “2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı” çərçivəsində həyata keçirilir. Cari ildə mövcud layihəyə uyğun olaraq, Elitar Gimnaziyaya, Avropa Liseyinə, 23 və 6 saylı orta məktəblərə 400 noutbukun verilməsi planlaşdırılır. Noutbukların 300-ü Təhsil Nazirliyi, 100-ü isə “İntel” Korporasiyası tərəfindən veriləcək.

Artıq Elitar Gimnaziya şagirdlərinə yeni noutbuklar verilib. 2010-cü ilin sonunadək bu layihə çərçivəsində Azərbaycan məktəblilərinə Təhsil Nazirliyi 3000, “İntel” 1000 noutbuk təqdim edəcək.